AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

3 aprel 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 12 (3724)



# Böyük Qayıdışın güclü təməli

## Dünya Qarabağdakı quruculuğa həsəd aparır

**Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara mütəmadi səfərləri xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Çünki məhz dövlət başçısının şəxsi nəzarəti altında azad olunmuş ərazilərdə böyük inkişafın təməlləri atılır.**




Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın martın 27-də Şuşaya və Ağdam rayonuna səfərləri sürətli bərpa-quruculuq prosesinin miqyasını bir daha gözlər önünə sərdi.

Məlumat üçün qeyd edək ki, Prezident və birinci xanım Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, iaşə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olublar.

Həmin gün Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında da iştirak edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu kənddə yerli icra strukturları üçün inşa olunmuş çoxfunksiyalı inzibati binanın, yeni inşa edilmiş fərdi yaşayış evlərində yaradılan şəraitlə tanış olublar, körpələr evi-uşaq bağçasının və Sarıcalı kənd tam orta məktəbinin binasının açılışında iştirak ediblər.

Daha sonra dövlətimizin başçısı və birinci xanım yeni mənzillərə köçən sakinlərlə görüşüb və onlara evlərin açarlarını təqdim ediblər.

Tədbirdə çıxış edən dövlətimizin başçısı bildirib ki, bu, artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar. Bütün keçmiş köçkünlər üçün gələcəkdə bu cür şərait yaradılacaq. Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Təbii olaraq, Ağdam şəhəri yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Ağdamda işğaldan sonrakı dövrdə bir çox önəmli infrastruktur obyekti istifadəyə verilib, ilk növbədə, yollar salınıb. Ağdam-Bərdə yolu yenidən qurulub. Ağdam-Xankəndi yolu inşa edilir. Bu yol Bərdə-Ağdam yolu kimi dördzolaqlı olacaq.

Bu il istifadəyə verilməsi nəzərdə tutulan dəmir yolu çəkilir. Yəni, Ağdama dəmir yolu ilə rahat gəlmək mümkün olacaq. Vağzal kompleksi inşa edilir. Ağdam məscidi bərpa edilib. Muğam Mərkəzi inşa edilir. "İmarət" Kompleksi bərpa edilib. Natəvanın qəbri bərpa olunub, düşmən tərəfindən dağıdılmış abidəsinin eynisi yenidən tikilib. Xaçınçay su anbarı yenidən qurulub. Eləcə də məktəb binası inşa edilir, xəstəxana tikilir, böyük sənaye kompleksi fəaliyyət göstərir. Artıq bir neçə müəssisə orada fəaliyyət göstərir və bu, Qarabağ, Şərqi Zəngəzur bölgəsinin ən böyük sənaye kompleksi olacaq. Yaşayış evləri, bir neçə yaşayış kompleksi inşa edilir ki, bu il istifadəyə veriləcək.

Təbii ki, bütün bu bərpa-quruculuq işləri yalnız Azərbaycan dövlətinin gücünə öz həllini tapır. Azərbaycan dövləti sübut edir ki, bu gün bu qədər genişmiqyaslı quruculuq işlərini görməyə qadirdir.

Təkcə Ağdam rayonunu deyil, bütövlükdə azad edilmiş torpaqlarda gedən işləri götürsək, qısa müddət ərzində bu qədər bərpa işləri heç bir ölkədə heç vaxt görülməyib.

# İlk səfər

## Dövlət başçıları görüşüb

Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer aprelin 1-də Azərbaycana rəsmi səfərə gəlib. Aprelin 2-də Prezident İlham Əliyevin Prezident Frank-Valter Ştaynmayer ilə təkbətək, daha sonra isə geniş tərkibdə görüşü olub. Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Qeyd edək ki, Almaniya dövlət başçısı Azərbaycana ilk dəfə rəsmi səfər edib.

# Tarixi əməkdaşlıq

## Münasibətlər inkişaf edir

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 1-də İran Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayini qəbul edib. Görüşdə ölkələrimiz arasında nəqliyyat, xüsusilə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub, Ağbənd istiqamətində Araz çayı üzərində körpünün tikintisi prosesi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Ehtiramla anırıq

## Azərbaycanlıların Soyqırımı Günü

Prezident İlham Əliyev sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib. Birinci vitse-prezident Mehriban Əliyeva da sosial şəbəkə hesablarında bununla bağlı paylaşım edib. Paylaşımda deyilir: "Soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

# Bayram təbriki

## Prezidentlərin telefon danışığı olub

Martın 29-da Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. Prezidentlər müqəddəs Ramazan bayramı münasibətilə qarşılıqlı olaraq təbriklərini çatdırıblar, ölkələrimizə firavanlıq və ruzi-bərəkət arzulayıblar. Dövlət başçıları qardaşlıq və müttəfiqlik münasibətlərinə əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi də aparıblar.

# Rəsmi xəbərlər

- Gənc istedadlara xüsusi təqaüdlər veriləcək. Dövlət başçısı İlham Əliyev bununla bağlı aprelin 1-də Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev aprelin 1-də İsmayıllı rayonunun İvanovka kəndində əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına dair tədbirlər haqqında Sərəncam imzalayıb.
- Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Şəfiqə Haşım qızı Məmmədova "İstiqlal" ordeni ilə təltif edilib. Prezident İlham Əliyev martın 29-da bununla bağlı Sərəncam imzalayıb.
- "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiq edilib. Bununla bağlı Prezident İlham Əliyev martın 19-da Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev martın 19-da "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Gənclərə etibar olunur, etimad göstərilir

## Nazir polis olmaq istəyənlərin sıra baxışını keçirib

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 19-da respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 184 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 16 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.





Dərs aldığımız tarix 2

Müraciətləri asanlaşdıran növbəti yenilik 2

Biri şəhid, biri qazi... 3

Zəngibasara qayıdacağıq 4

# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il aprel ayının 8-də Şəki Şəhər-Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 07.04.2025-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Qarabağda təhsil haqqını dövlət ödəyəcək

İşğaldan azad olunmuş ərazilərdə ödənişli əsaslarla təhsil alan şəxslərlə bağlı qanunvericiliyə dəyişiklik olunur. Layihəyə əsasən, işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış və 2025/2026, 2026/2027, 2027/2028-ci tədris illərində dövlət, bələdiyyə və özəl peşə təhsili müəssisələrinə qəbul olunmuş, habelə həmin təhsil müəssisələrində təhsil almaqda olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Qanun layihəsi Milli Məclisdə üçüncü oxunuşda qəbul edilib.

### Güzəştlər sahibkarlığa töhfə verir

Güzəştli yatırımlar iqtisadi inkişafa töhfə verməkdədir. İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit mexanizmlərindən indiyədək ölkə üzrə 52 mindən çox sahibkar faydalanıb. Ötən müddətdə iqtisadiyyatın müxtəlif sahələrində və fərqli iqtisadi rayonlarda fəaliyyət göstərən sahibkarlara 3,3 milyard manatdan çox güzəştli kredit verilib.

### Əhalinin gəlirləri açıqlanıb

Cari ilin yanvar-fevral aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,4 faiz artaraq 11 milyard 907,1 milyon manat və ya hər nəfərə orta hesabla 1164,2 manat olub. Dövlət Statistika Komitəsindən bildirilib ki, əhalinin sərəncamında qalan gəlirləri 10 milyard 164,8 milyon manat təşkil edib.

### Ağdamın kəndi yenidən qurulub

Birinci mərhələ üzrə Ağdamın Sarıcalı kəndinə 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır. Artıq 203 fərdi ev inşa olunub. Evlərin 63-ü iki, 91-i üç, 45-i dörd, 4-ü isə beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

### Müavinət hüququ asanlıqla gerçəkləşir

Son altı ildə 900 minədək pensiya, müavinət və təqaüd proaktiv qaydada təyin edilib.Bu müddətdə sosial təminat növləri üzrə  təyinatlar e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Qeyd edək ki, 2019-cu ilin əvvəlindən pensiya, müavinət və təqaüd təyinatları elektronlaşdırılıb.

### "Şirin Xəzər" layihəsi

Bu il Sumqayıt Kimya Sənaye Parkında dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı pilot layihənin icrasına başlanılacaq. Layihənin beynəlxalq normalara uyğun dövlət-özəl tərəfdaşlığı kontekstində icrası məqsədilə nüfuzlu beynəlxalq məsləhətçi şirkətlər cəlb edilib və potensial investorlar müəyyənləşdirilib. Layihənin həyata keçirilməsi üçün 29,6 hektar torpaq sahəsi ayrılıb.

### Yeni internet xidməti fəaliyyətə başlayıb

"Starlink" genişzolaqlı peyk internet xidməti Azərbaycanda istifadəyə verilib. "Starlink" qlobal peyk rabitə sistemidir. Bu şəbəkə dünyanın istənilən yerindən internetə çıxışı təmin edir. Terminallar rabitə infrastrukturunun inkişaf etmədiyi ucqar və əlçatmaz regionlarda siqnal qəbul etmək qabiliyyətinə malikdir. Trafik sürəti 1 Gbit/s təşkil edir ki, bu da beşinci nəsil mobil rabitə standartına (5G) uyğundur.

# Dərs aldığımız tarix

## İyirminci yüzillik azərbaycanlıların soyqırımı əsri kimi tarixə düşüb

**Daşnaqların havadarları olan bolşeviklərlə birgə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımdan 107 il ötür. 1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən, çox sayda qoca, qadın və uşağın qətli ilə nəticələnib.**

Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirib, müsəlman ziyarətgahlarını yandırıb, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə edib.

Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulub, ermənilər Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binasını yandırıblar.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti təkcə Bakı şəhəri ilə məhdudlaşmayıb.

Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən, 2560 qadın və 1277 uşağı qətlə yetiriblər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olub.




Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırıb, on minlərlə insanı vəhşicəsinə qətlə yetiriblər.

1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim edib, 1919-cu ildə Azərbaycan parlamenti 31 Mart tarixinin Azərbaycanlıların Soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul edib.

Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, müstəqillik dövründə tarixi sənədlər əsasında 31 mart 1918-ci ildə Azərbaycan xalqının başına gətirilən faciəvi hadisələrlə bağlı çoxsaylı araşdırmalar aparılıb, kitablar dərc olunub.

1998-ci il martın 26-da Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayıb. Həmin gündən 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı günü kimi qeyd olunur.

# İdeoloji hazırlığa xüsusi önəm verilir

## Xidməti intizama və qanunçuluğa əməl etməyin vacibliyi aşılanır



Şəxsi heyət arasında ideoloji və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi, gənc əməkdaşların sosial təşəbbüskarlığının artırılması, onların dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, xidmətdə olduqları və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına riayət etmələrinin təmin edilməsi DİN rəhbərliyinin diqqət mərkəzindədir.

Bu məqsədlə, Şirvan, Salyan Polis Şöbələrinin, o cümlədən Şirvan, Salyan Regional Mühafizə şöbələrinin şəxsi heyəti ilə görüşlər keçirilib.

Görüşlərdə DİN Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşları polisin cəmiyyətdə nüfuzunun artırılması üçün xidməti konfidensiallığı qorumanın zəruriliyi, korrupsiya hallarına qarşı mübarizə, sosial şəbəkələrin cəmiyyətin şüuruna mənfi təsir etmə imkanları və yarada biləcəyi təhlükələr barədə məlumat veriblər.

Xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına, xidməti intizama və qanunçuluğa əməl etməyin vacibliyi də gənc əməkdaşların diqqətinə çatdırılıb.

Növbəti görüşlərin respublikanın digər şəhər və rayonlarının polis orqanları və mühafizə hissələrində davam etdirilməsi nəzərdə tutulur.

*"Polis"*

# Türkiyəli qonaqlar Polis Akademiyasında

## Təcrübə mübadiləsi çərçivəsində keçirilən görüşlər əməkdaşlığa töhfə verir

Qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının rəisi Murad Balcı və rəis köməkçisi Mehmet Ali Tekiner Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında işgüzar səfərdə olublar.





Akademiyanın rəhbərliyi, şöbə, bölmə və ixtisas kafedralarının rəisləri ilə keçirilən görüşdə təhsil müəssisələri arasında qarşılıqlı əlaqələrin önəmi vurğulanıb, polis təhsili sahəsində bundan sonra da sıx əməkdaşlığın davam etdiriləcəyi bildirilib.

Qeyd olunub ki, bu təcrübə mübadiləsi gələcək uğurlara öz töhfəsini verəcək.

Sonra Akademiyanın maddi-texniki bazası və kursantlar üçün yaradılan şəraitlə tanış olan qonaqlara hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

# Müraciətləri asanlaşdıran növbəti yenilik

## "E-Polis" mobil tətbiqi vahid platformaya çevrilib

Polis orqanlarına elektron müraciət ünvanlamaq üçün əvvəlcə proqrama daxil olub "Elektron müraciət" xidmətinə keçid edirsiz. Açılan pəncərədə "Müraciət et" düyməsinə klikləldikdən sonra əlaqə məlumatlarınızla tanış olursuz.

Məlumatlar düzgün olduğu təqdirdə isə "Davam et" düyməsini sıxaraq növbəti mərhələyə keçirsiz. Bu zaman qarşınıza çıxan qaydalarla tanış olub "Davam et" düyməsini klikləyirsiz. Sonra gələn "Ümumi məlumatlar" hissəsində müraciət edən şəxs kateqoriyasını, "Hara ünvanlanır", "Müraciətin növü"nü seçirsiniz. Əgər şikayət edəcəksinizsə, şikayət etdiyiniz şəxsin daxili işlər orqanının əməkdaşı və ya digər şəxs olduğunu qeyd edirsiz. Ardınca müraciətin mövzusunu və hadisə yerini yazırsız. Növbəti




düyməsini sıxaraq "cavabdeh barədə məlumatlar" hissəsində şikayət etdiyiniz şəxs haqda bildiyiniz məlumatları da daxil edib yenə növbəti düyməsini sıxırsız. Mətni, şəkil və ya sənəd varsa onları da əlavə edərək müraciəti təsdiqləyirsiniz. Beləliklə prosedur tamamlanır və bir neçə dəqiqə ərzində müraciətinizi elektron qaydada polis orqanına göndərməklə məmnunluğunuz təmin olunur.

Qeyd edək ki, vətəndaşlar şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, ümumvətəndaş pasportunun verilməsi və dəyişdirilməsi kimi Daxili İşlər Nazirliyinə aid ödənişlərlə yanaşı, artıq dövlət rüsumlarını da "E-Polis" mobil tətbiqi vasitəsilə daha rahat şəkildə ödəyə bilərlər.

# Ötən ayın statistikası

## Hədəfimiz vətəndaş məmnunluğunun təmin edilməsidir

Martın 1-dən 31-dək DİN-in sosial şəbəkələrdəki səhifələrinin mesaj bölməsinə 3613 müraciət daxil olub və hər biri cavablandırılıb.

Onlardan 839-u (188-i təşəkkür məktubu) qeydiyyata alınması və aidiyyəti üzrə yönləndirilməsi üçün DİN-in Katibliyinə təqdim edilib.

Onlardan 848-i cinayətkarlıqla mübarizə, 1333-ü qanunvericilik və digər məsələlərə dair, 331-i əməkdaşların fəaliyyətinin qanunauyğunluğu, 429-u Dövlət Yol Polisinin, 260-sı ictimai təhlükəsizlik, 325-i vakansiyalar və xidmətə qəbul, 87-si istintaq və təhqiqat qurumlarının fəaliyyəti ilə bağlı olub.

*Gümüş Kazımzadə*
*polis leytenantı*

# Biri şəhid, biri qazi…

## İki qardaşın qələbə dastanı tariximizin bir parçasıdır

**Müharibəyə fərqli təriflər verilsə də o güc nümayişinin bir formasıdır əslində. Bir zamanlar həyatda qalmaq, qidalanmaq, qorunmaq və nəhayət öldürmək üçün daş atan insanın əli bir düymə ilə bir şəhəri yerlə-yeksan etməyə qadir olandan sonra yaşamaq uğrunda mübarizə fikri də fəlsəfi gücünü itirdi.**

Dünyanı dəyişdirən reallıqlar müharibələrin gücünü, gücün iradəsi ilə baş verməsini bir daha gözlər önünə sərdi. Gəlin etiraf edək: çağdaş müharibələrin səbəbi dil, din, irq ayrıseçkiliyi, yeni ərazilərin zəbti, daha çox gəlir əldə etmək, sərvətlərə yiyələnmək deyilmi? İbtidai icma dövründəki insanla müasir insanın bir fərqi var: o həyatda qalmaq, aclıqdan ölməmək üçün mübarizə aparırdı, bu gün dünyanı yenidən bölüşdürmək istəyənlər isə həyatda qalmaq istəyəni acından öldürmək, onun əldə etdiklərinə sahiblənmək üçün müharibə aparırlar.

Məhz ötən əsrin tariximizə qara damğası kimi vurulan sonuncu deportasiyadan sonrakı dönəm, daha doğrusu, doxsanıncı illər xalqımızı süni yaradılan müharibənin əsirinə çevirdi. Bu müharibənin əsəri isə yurdsuz-yuvasız, evsiz-eşiksiz qalan insanlar idi…

Mənim qəhrəmanımın babaları bu mənzərələri 1948-1953-cü illərdə dədə-baba yurdları Dərələyəzdən Saatlıya, Kür-Araz ovalığına köçürüləndə görmüşdülər. Taleyinə qaçqınlıq yazılanların nisgili, ahı-naləsi heç vaxt dinmir, çünki itirdiklərinin sənin varlığının bir parçası olduğunu və necə dəyərli olduğunu bilirsən.

Sadaladıqlarım, müharibənin daş üzü, xalqımızın üzləşdiyi faciələr onunla həmsöhbət olandan sonra yazımın axarını dəyişdi. Məni tamam bir başqa havaya köklədi. "Babalarımın zorla qovulduğu Vətən torpaqları uğrunda da döyüşmək arzusundayam",- deyən həmkarım xalqımızın unutqan olmadığının, qanında, canında, ruhunda itirdiklərini qaytarmaq eşqi ilə yaşadığının bariz nümunəsi idi.

Vətən qarşısında vəfa borcumuz olan Vətən müharibəsinin, eləcə də ərazi bütövlüyümüzün, suverenliyimizin təcəssümü kimi tarixə düşən antiterror tədbirlərinin iştirakçısıdır Əlahiddə Çevik Polis Alayının əməkdaşı polis baş serjantı Vəfadar Bayramov. O, torpağı şəhid kimi müqəddəsləşdirən, qazi kimi azadlığına qovuşduran, Vətənə layiq övladlar yetişdirən atanın, ananın övladıdır. Vəfadar 1993-cü ildə Saatlı rayonunun Məmmədabad kəndində dünyaya göz açıb. Şəhid Azad Bayramov adına Məmmədabaddakı tam orta məktəbi 2010-cu ildə bitirib və 2011-ci ildə həqiqi hərbi xidmətə çağırılıb.

Qartalların yuva qurduğu Murovdağdakı "N" saylı hərbi hissədə Vətənin keşiyini çəkib və həqiqi hərbi xidmətini 2013-cü ildə başa vurub. Müharibənin izi qalan dağlarımızda mövqe tutan düşməndən əmisinin, əmisi oğlunun və bir çox doğmalarının qisasını almaq üçün hərbçi peşəsini seçir. 2017-ci ildə Daxili İşlər Nazirliyinə müraciət edir. DİN-in Daxili Qoşunlarında xidmətə qəbul olunur. Xidməti dövründə bir çox əməliyyatlarda iştirak edir, qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirir. Adı qorxulu olsa da nəticədə Vətəni azadlığına qovuşduracağına görə silaha sarılan yüzlərlə igid oğullarımız kimi Vətən müharibəsinin qəbul olunan dua, çin olan arzu kimi sevincini yaşadı o da.





Ali Baş Komandanın əmri ilə düşmən təxribatının qarşısını almaq üçün əks həmlə əməliyyatına başlanılanda ilk istiqamətləri Füzuli rayonu olub. Düşmən əlverişli mövqedə qərar tutsa da qısa zamanda yaratdığı süni cəbhə xətti darmadağın edilib.

Azad etdiyimiz yüksəkliklər, ərazilər sanki bizə yuxu kimi gəlirdi. Döyüş filmlərində gördüyümüz səhnələrin içində idik. Son anlarında gülə-gülə canını tapşırıb şəhid olan döyüşçülərimizin qisasını almaq üçün hətta ağır yaralanan silahdaşlarımız belə ilkin tibbi yardım göstərildikdən sonra yenidən sıramıza qoşulurdular.

Döyüşçü yoldaşları kimi onun da həsrətlə, qisas hissi ilə gözlədiyi an gəlir. Növbəti tapşırıq Şuşanın azad olunması idi. Bunun üçün əvvəlcə Şuşaya gedən yollar, strateji yüksəkliklər nəzarət altına alınmalıydı. Xüsusi təyinatlılar digər qüvvələrin Şuşa istiqamətində hərəkət etmələri üçün oktyabrda Hadrutu və ətraf kəndləri düşməndən təmizləyirlər. Qırmızı bazar istiqamətində irəliləyən qüvvələrimiz düşmənin planlarını alt-üst edib.

"Komandanlığın qərarı ilə 400 nəfərlik heyətlə sıx meşələrdən keçib Şuşaya doğru istiqamət götürdük. Düşmən gəlişimizdən xəbər belə tutmadı. Noyabrın 4-də Şuşa-Laçın yolunun bir hissəsini düşməndən təmizləyib, nəzarətə götürmüşdük. Noyabrın 6-da səhər tezdən kiçik qruplar şəklində Şuşaya daxil olmaq üçün hərəkətə keçdik".

Düşmən özü də etiraf edir ki, Azərbaycan əsgəri Şuşanı yüngül atıcı silahlarla və əlbəyaxa döyüşlə geri aldı. Şuşa təbii istehkam olduğundan ora ağır texnika ilə girmək mümkün deyildi. Düzdür, düşməni hava zərbələri ilə məhv etmək olardı. Lakin bu böyük dağıntılara səbəb olacağından yüngül silahlarla döyüşmək taktikası seçilmişdi.

Şuşa ordumuzun nəzarətində idi. Düşmən hətta ballistik raketlərdən belə istifadə etsə də bu döyüşün taleyini dəyişə bilmədi.

"İlk tapşırığımız Şuşa-Xankəndi yolunu bağlamaq oldu. Biz 22 nəfərlə düşmənin böyük bir qüvvəsinin qarşısını alıb onun 200 nəfərə yaxın canlı qüvvəsini, xeyli ağır texnikasını məhv etdik. Noyabrın 7-də daha bir döyüş tapşırığı zamanı mən və yanımda olan 4 nəfər döyüşçü yoldaşım yaralandıq. Bizi digər döyüşçü yoldaşlarımız döyüş gedən ərazidən çıxarıb ilkin tibbi yardım göstərdilər. Bizi arxa cəbhəyə təxliyyə etmək istəsələr də razılaşmadıq".

Noyabrın 9-dan 10-na keçən gecə saat 2-3 radələrində atəşi dayandırın tapşırığı gözlənilməz olur. Lakin növbəti xəbər hər kəsi sevindirir: müharibə bitib, düşmən kapitulyasiya aktına imza atıb.

Ancaq o, Şuşa uğrunda döyüşlərdən öncə görüşdüyü qardaşından - Fərruxdan nigaran idi. İçindəki narahatlıq onu dinc buraxmırdı. Döyüşə birlikdə atılmışdılar, qələbəni də birlikdə qeyd etməliydilər. Ancaq Fərrux Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdı. Düşmən snayperindən atılan güllə Vətən üçün döyünən ürəyini əbədi susdursa da Şuşa qalasında dalğalanan üçrəngli bayrağımız onun kimi yüzlərlə şəhidimizin ruhunu şad etmişdi. Çünki uğrunda can verdikləri Vətən torpaqları düşməndən azad edilmişdi.

Polis baş serjantı Vəfadar Bayramov Müzəffər Ali Baş Komandanın müvafiq sərəncamları ilə "Rəşadət" ordeni, "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Həmkarımız 2024-cü ildən Əlahiddə Çevik Polis Alayında xidmət edir.

Deyir ki, asayişi, sabitliyi qorumaq postu, səngəri qorumaq kimidir. İkisi də məsuliyyətlidir. İkisində də sənə etibar edilir, etimad göstərilir.

**Sözardı:** Müharibə ağ-qara şəkil kimidir. Şəkil demiş, bu gün həmkarım Şuşa əməliyyatına girməzdən öncə qardaşı Fərruxla çəkdirdiyi xatirə şəklini döş cibində, ürəyinin başında qoruyub saxlayır. Bu şəkil, qardaşının övladları, ən əsası azad olunmuş Vətən torpaqları onun kimi bizə də əmanətdir. O əmanətləri qoruyaq, sahib çıxaq ki, bayraq kimi enməz oğulların ruhu şad olsun.

*Hafiz Təmirov*
*polis polkovniki*

# "Kiberdələduzlara qarşı diqqətli olun!"

## Polis Balakəndə tədbirlər keçirib

Kiberoğurluq və dələduzluq hallarına qarşı mübarizə işinin daha da gücləndirilməsi, bu sahədə sakinlər arasında maarifləndirmə işinin genişləndirilməsi məqsədilə Balakəndə polis əməkdaşları tərəfindən silsilə tədbirlər təşkil olunub. Bankomat və ödəmə terminallarının ətrafında, mağazalarda, digər ictimai iaşə obyektlərində xəbərdaredici lövhələr vurulub. Eyni zamanda, sakinlərə internet resursları üzərindən törədilən cinayətlərlə bağlı məlumatverici vərəqələr paylanılıb.



Şəki regional qrupumuzun məlumatına görə, tədbirlər zamanı vətəndaşlara izah olunub ki, bank və digər şəxsi məlumatlar heç bir halda qarşı tərəfə ötürülməməli, mobil internetin sürətinin artırılması ilə bağlı gələn şübhəli mesajlarda linklərə keçid etməməli, alış-veriş saytlarında məhsula baxış keçirmədən tanımadıqları şəxslərə beh göndərməməli, sosial şəbəkələrdə aşağı faizlə kredit təklif edən dələduzların şirniklədirici vədlərinə inanmamalıdırlar.

Polis əməkdaşları tərəfindən vətəndaşlara, xüsusilə təqaüdçülərə kartlarındakı pulu nağdlaşdırmaq məqsədilə tanımadıqları şəxslərdən kömək istəməmək, digər şəxsin kart hesabına pul göndərmək istəyən zaman isə yalnız bankların səlahiyyətli əməkdaşlarına müraciət etmələri tövsiyə olunub.

# Biləsuvarda əməliyyat…

## Narkotik vasitə və silah-sursat aşkarlandı

Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən 38 yaşlı Eldar Məmmədov saxlanılıb.

Lənkəran regional qrupumuzdan verilən məlumata görə, həmin şəxsdən 11 kiloqram marixuana, tiryək, metamfetamin və 1 ədəd gecəgörmə cihazı aşkarlanıb.

Həyata keçirilən digər tədbirlərlə isə qanunsuz olaraq odlu silah saxlamaqda şübhəli bilinən Yusif Qurbanov saxlanılıb. Ondan "Makarov" markalı tapança, 4 ədəd patron və daraq aşkarlanıb.

Faktlarla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Narkotik vasitələrin qaçaqmalçılığı

## Yardımlıda İran vətəndaşları saxlanıldı

Ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə narkotiklərin gətirilməsini və ayrı-ayrı ünvanlara yerləşdirilməsini təşkil edən transmilli mütəşəkkil cinayətkar dəstənin üzvləri olan İran İslam Respublikası vətəndaşlarına qarşı polis əməkdaşları əməliyyat keçirib.

Lənkəran regional qrupumuzdan verilən məlumata görə, Yardımlı Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə 26 yaşlı Hadi Fəsihi və 29 yaşlı Rza Ətai saxlanılıblar. Onlardan 36 kiloqram tərkibi psixotrop maddələrlə zənginləşdirilən marixuana,heroin və metamfetamin aşkarlanıb.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Dəstənin digər üzvlərinin və ölkə daxilində olan əlaqəli şəxslərin saxlanılması istiqamətində əməliyyatlar davam etdirilir.

# Məsuliyyət xidmətimizin təməlidir

## Vətəndaş məmnunluğu rəğbətəlayiq fəaliyyətin nümunəsidir

Vətəndaş İlhamə Həsənova müraciətinə həssas yanaşıldığına və göstərilən köməkliyə görə DİN rəhbərliyinə və Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Sosial şəbəkə istifadəçisi Mahmud Hüseynov Daxili İşlər Nazirliyinin "Facebook" sosial şəbəkə səhifəsinə ünvanladığı mesajında itirdiyi əşyasının tapılaraq ona təhvil verdiklərinə görə Nizami Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Siyəzən rayon sakini Amil Ağayev onlayn dələduzluğa məruz qalması ilə bağlı etdiyi müraciətinin obyektiv araşdırılmasına, eləcə də ona dəymiş ziyanın tam ödətdirilməsinə görə Siyəzən RPŞ-nin əməkdaşlarına minnətdarlığını bildirir.



Vətəndaş Nərminə Şıxverdiyeva DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, üzləşdiyi dələduzluqla bağlı müraciətinə dərhal reaksiya verilməsinə və ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə Nəsimi RPİ 20-ci Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Vətəndaş Könül Bağırova DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, müraciətinə operativ baxılaraq həyata keçirilən tədbirlərə görə Naxçıvan Şəhər Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Vətəndaş Əbülfət Sadiq oğlu DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, müraciətinə göstərilən operativliyə və obyektivliyə görə Xətai RPİ-nin 34-cü Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Bakı şəhər sakini Elmar Hüseynov məktubunda üzləşdiyi dələduzluq faktı ilə bağlı müraciətinə operativ baxıldığına, obyektiv araşdırılaraq qısa müddətdə müsbət həll edildiyinə və ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə DİN rəhbərliyinə və Binəqədi RPİ-nin 6-cı Polis Bölməsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Sevda Rüstəmova sosial məişət probleminin həllində ona göstərilən köməkliyə görə DİN rəhbərliyinə və Binəqədi RPİ-nin 7-ci Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

# Polisdən uğurlu əməliyyat

## Tutulanlardan biri axtarışda imiş

Paytaxtın Sabunçu rayonunda yerləşən evlərin birindən 7830 manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə polisə məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 31 yaşlı qadın müəyyən olunaraq saxlanılıb.

Sumqayıtda da oxşar hadisə baş verib. Şəhər ərazisindəki evlərin birindən 2500 manat pulu və qızıl-zinət əşyasını oğurlamaqda şübhəli bilinən, əvvəllər narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş 34 yaşlı X.Cəlilov polis əməkdaşları tərəfindən saxlanılıb. Ondan narkotik vasitə olan heroin də aşkar olunaraq götürülüb.

Suraxanı rayonunda isə bir avtomobildən 800 manat pul, 2 ədəd mobil telefon və sənədlər oğurlamaqda şübhəli bilinən, əvvəllər məhkum olunmuş 39 yaşlı T.Mehtiyev müəyyən olunaraq saxlanılıb. Araşdırmalarla onun axtarışda olması da məlum olub. Hər bir faktla bağlı araşdırmalar aparılıb.

# Zəngibasara qayıdacağıq

## Adı qədər tarixi də qədim olan yurd yerimiz bizi gözləyir

İrəvan şəhərinin cənub hissəsindən Araz çayına qədər uzanan Zəngibasar mahalı Cənubdan Sürməli, Qərbdən Sərdarabad, Şərqdən Gərnibasar mahalları ilə əhatə olunub. Adını ərazisindən keçən Zəngi çayından götürən Zəngibasar XIX əsrdə Qırxbulaq mahalından ayrılaraq müstəqil mahala çevrilib. Zəngiçayın




hər iki sahilində salınmış 26 kənddən ibarət olan mahalın mərkəzi Uluxanlı kəndi idi.

1918-20-ci illərdə ermənilərin törətdiyi qırğınlar və 1930-cu illərin repressiyaları zamanı Zəngibasar mahalının Arazqırağı kəndlərinin əhalisinin böyük bir hissəsi Türkiyə ərazisinə köçməyə məcbur olub.

1920-ci illərdə mahalın mərkəzinin qədim Uluxanlı adı dəyişdirilərək N.Nərimanovun şərəfinə Nərimanlı, 1937-ci il dekabrın 31-də yenidən dəyişdirilərək Zəngibasar qoyulub. Ondan sonra qısa bir müddətə Zəngi çayının Razdan adlandırılması ilə bağlı kənd Razdan adlandırılıb. Nəhayət 1950-ci il iyulun 31-də bu ad da Masis ilə əvəz edilib.

1938-ci ildə Zəngibasar ərazisində eyni adlı inzibati rayon yaradılıb. Zəngibasar rayonu ərazisindəki 37 kəndin ancaq dördündə ermənilər yaşayırdılar. SSRİ Nazirlər Sovetinin 1948-50-ci illərdə Ermənistan SSR-dən 100 min azərbaycanlının Kür-Araz düzənliyinə köçürülməsi haqqında qərarından sonra Uluxanlı azərbaycanlılarının evlərində ermənilərin məskunlaşmasına şərait yaradılıb.

1958-1960-cı illərdən sonra yenidən Zəngibasara, öz doğma yurdlarına qayıdan azərbaycanlı əhalinin sayı 1988-ci ilin noyabr ayında, sonuncu deportasiya vaxtı 29860 nəfərə çatmışdı.

Tarixi mənbələrdə qeyd olunur ki, rayonun indiki ərazisi VII-XI əsrlərdə ərəb işğalına məruz qalıb. XI əsrdən Səlcuq İmperatorluğunun, 1230-cu ildə Monqol ağalığının tabeliyində olub.



XVI əsrdən Çuxur Səd bəylərbəyliyinin, XVIII əsrdən XIX əsrin əvvəllərinə kimi İrəvan xanlığının tərkibinə, XIX əsrdən XX əsrin 20-ci illərinə qədər Rusiya İmperiyasının İrəvan quberniyasının İrəvan qəzasının tərkibinə daxil edilib.

Zəngibasar mahalı özünün Uluxanlı (sonradan Zəngibasar və Əzizbəyov adına) məktəbi ilə Azərbaycan tarixində mühüm yer tutur. 1887-ci ildə Cəlil Məmmədquluzadə bu məktəbdə işləmək üçün təyinat alıb və uzun müddət burada çalışıb.

1937-ci il ilə qədər rayonun kəndləri əsasən Üçkilsə rayonu və Qəmərli rayonu arasında bölünüb. 1937-ci il dekabrın 31-də Qəmərli rayonundan 18, Üçkilsə rayonundan isə 14 kənd ayrılaraq ümumi sahəsi 170 kv km olan Zəngibasar rayonu yaradılıb. Qədim Uluxanlı kəndi də adı dəyişdirilərək Zəngibasar rayonu adı ilə mərkəz elan edilib. Zəngibasar rayonunun kəndlərindən 21-də ancaq azərbaycanlılar, 6-da çoxu azərbaycanlılar olmaqla həm də ermənilər, 5 kənddə isə yalnız ermənilər yaşayıb.

Vaxtilə Uluxanlıda 5, Zəngi, Şöllü, Qaraqışlaq, Mehmandar, Hacı Elləz kəndlərinin hər birində 2 məscid olub. Cəfərabad kəndindəki XIII əsrin yadigarı olan günbəzli türbənin taleyi bu gün naməlumdur. 1948-1951-ci illərdə Rəncbər kəndi istisna olmaqla bütün kəndlərinin azərbaycanlı əhalisi Azərbaycana köçürülüb. Lakin Stalinin ölümündən sonra azərbaycanlı əhali öz dədə-baba yurdlarına dönsə də artıq boş evlərdə məskunlaşan ermənilər yerli azərbaycan türklərini Elləz, Göykümbət, Arbat və digər kəndlərə buraxmayıblar.

Sonuncu deportasiya zamanı soydaşlarımız yaşadıqları Haçapara ,Qaraqışlaq, Dəmirçi, Sarvanlar, Rəncbər, Donuzyeyən, Həbilkənd, Yuxarı Neçili, Aşağı Neçili, Rəhimabad, Mehmandar, Şöllü və Uluxanlıdan zorla qovulublar.

Ötən əsrdə, daha dəqiq desək, 1930-cu ildə Zəngibasarın da əhalisi daxil olmaqla Vedinin, Qəmərlinin, Dərələyəzin, Ağbabanın və digər bölgələrin sakinləri olan əlli mindən artıq türk əhalisi Qazaxıstan çöllərinə sürgün ediliblər. Zəngibasarlıları öz dədə-baba yurdlarından zorla qovan erməni millətçiləri və onların havadarları zaman-zaman türklərə aid olan tarixi abidələrin izini yer üzündən silməklə məşğul olublar. Hətta Ermənistan SSR Ali Soveti Rəyasət heyətinin müxtəlif fərmanları ilə rayonun kəndlərinin tarixi adları dəyişdirilib:

-Şöllü-Daştavan (25.01.1978);
-Zəngilər-Zorak (1991-ci il);
-Zəhmət-Xaçpar (1991-ci il);
-Yengicə - Norabats (25.01.1978);
-Xarratlı-Arevabuyr (25.01.1978);
-Xaraberd-Nor Qyank (04.07.1938);
-Təzəkənd-Ayntap (10.09.1970);
-Sarvanlar-Sis (1991-ci il);
-Mehmandar-Hovtaşat (25.01.1978);
-Kəllərə-Qukasavan (01.12.1949);
- Həbilkənd-Noramarq (1991-ci il);
- Dəmirçi-Darpnik (1991-ci il);
- Dostluq-Hayanist (1991-ci il);
-Cəfərabad-Arqavand (04.04.1946);
-Aşağı Neçili-Sayat-Nova (25.01.1978);
-Ağcaqışlaq-Getapiya (25.01.1978);
-Ağahəmzəli-Marmaraşen (25.05.1967).

# Cavab tapıldı

## Qalibin hədiyyəsi "Dəyirman"dır

"Polis" qəzetinin "Mükafatlı sual" rubrikasında




oxuculara ünvanladığımız sualın cavabı nəhayət ki, tapıldı. Qalibimiz Nərimanov RPİ-nin Post-Partul Xidməti bölüyünün komandir müavini polis leytenantı Sərxan Orucludur. Düzdür, ondan sonra bir neçə həmkarımız müəllifin və əsərin adını doğru cavablandırsa da, vəd etdiyimiz kimi cavabı ilk tapan qalib elan olunur.

Xatırladaq ki, ötən saylarımızda Azərbaycanın böyük yazıçısı Mövlud Süleymanlının "Dəyirman" əsəri ilə oxucularımızı sınağa çəkmişdik.




Şamaxı zəlzələsinin nəticələrinin aradan qaldırılmasında onun xidmətlərindən çoxları xəbərsizdir. Böyük bir maarifçilik hərəkatına başçılıq edən bu şəxs Nəriman Nərimanovun "Nadir şah" əsərinin, Nəcəf bəy Vəzirovun dram əsərlərinin, Məhəmməd Hadinin şeirlər kitabının, Axund Mirməmmədkərim Mircəfərzadənin üç cildlik "Quranın şərhi və tərcüməsi" əsərinin nəşrinə də köməkliyini əsirgəməmiş, xalqımızın maariflənməsi üçün əlindən gələni etmişdi. Söhbət hansı tarixi şəxsiyyətdən gedir?

*"WhatsApp":*
*+994 55-875-16-39*

# Ölkə güclüləri sırasında

## Yaradılan şərait qalibiyyəti qaçılmaz edir

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə ötən ay idmanın "strit liftinq" növü üzrə ölkə çempionatı keçirilib. Çempionatda 200-dən çox idmançı gücünü



sınayıb. 102 kiloqram çəki dərəcəsində yarışa qatılan BŞBPİ Dövlət Yol Polisi İdarəsinin əməkdaşı polis baş leytenantı Babək Bağırlı turnikdə dartınma hərəkətində belinə 45 kiloqram, paralel qolda isə 80 kiloqram çəki bağlamaqla növbəti dəfə ölkə çempionu olub.

DİN Komendant Xidmətinin əməkdaşı polis serjantı Hikmət Balayev də ötən illərdəki uğurunu təkrarlayıb.




O, bu dəfə 90 kiloqram çəkidə yarışıb. Turnikdə dartınma hərəkətində belinə 75 kiloqram, paralel qolda isə 85 kiloqram çəki bağlamaqla hamıdan güclü olduğunu sübut edərək qızıl medal qazanıb.

# Xilaskar tibb bacısı

## Bəs o, nə üçün casusluqda ittiham edilmişdi?

Edit Luiza Kevel Britaniyalı tibb bacısı idi. O, ayrı-seçkilik olmadan hər iki tərəfdən olan əsgərlərin həyatını xilas etdiyinə və Birinci Dünya Müharibəsi zamanı Almaniyanın işğalı altında olan Belçikadan 200-ə yaxın yaralı əsgərin qaçmasına kömək etdiyinə görə dövlətə xəyanətdə günahlandırılıb. Hərbi məhkəmə tərəfindən təqsirli bilinib və ölüm cəzasına məhkum edilib. Onun edamı dünya miqyasında pislәndi və mətbuatda geniş işıqlandırıldı. Kevel 4 dekabr 1865-ci ildə Svardeston kəndində doğulub. O, Norviç Qızlar Liseyində, sonra Klivdon, Somerset və Peterborodakı internat məktəblərində təhsil alıb. 1890-cı ildən 1895-ci ilə qədər Brüsseldə bir ailədə bir müddət qulluqçu kimi işlədikdən sonra ağır xəstəlikdən əziyyət çəkən atasına qulluq etmək üçün evə qayıtdı. Bu təcrübə onu atasının sağalmasından sonra tibb bacısı olmağa vadar etdi. Kevel 1895-ci ilin dekabr ayından etibarən Tutinqdəki Fəvvarə Qızdırması Xəstəxanasında tibb bacısı kimi çalışıb.



1898-ci ilin oktyabrından 1899-cu ilin dekabrına qədər London Xəstəxanasının Özəl Tibb Bacısı Müəssisəsində xəstələri evlərində müalicə edən özəl tibb bacısı kimi fəaliyyət göstərib.

1907-ci ildə Kevel Antuan Depaj tərəfindən İxellesdəki Rue de la Culture (indiki Rue Franz Merjay) üzərində yeni yaradılmış tibb bacısı məktəbinin matronu vəzifəsinə işə götürüldü. 1910-cu ildə Belçikada peşəkar tibb bacısı jurnalı, - "L'infirmière"ni nəşr etdi. Bir il ərzində o, Belçikada üç xəstəxana, iyirmi dörd məktəb və on üç uşaq bağçası üçün tibb bacıları hazırladı.

Ona Brüssel klinikalarından birində matron vəzifəsi təklif edildiyindən bir müddət sonra o, Brüsselə qayıtdı. 1914-cü ilin noyabrında Almaniyanın Belçikanı işğalından sonra, Kevel Britaniya əsgərlərinə sığınmağa və onları işğal olunmuş Belçikadan neytral Hollandiyaya göndərməyə başladı. Yaralı britaniyalı və fransız əsgərləri, habelə hərbi mükəlləfiyyətli yerli mülki şəxsləri almanlardan gizlədir, onlara Mons yaxınlığındakı "Bellignies" şatosunda Şahzadə Recinald de Kroy tərəfindən saxta sənədlər verilirdi. Kevel Lui Severin və başqalarının Brüsseldəki evlərinə gətirilən şəxsləri ev sahibləri Hollandiya sərhədinə çatmaq üçün pulla təmin edir və Filip Bak vasitəsilə tanış olduqları bələdçilərlə almanların işğalında olan ərazidən çıxarıldılar. Alman səlahiyyətliləri tibb bacısının hərəkətlərindən getdikcə daha çox şübhələndilər və bu, onun açıq sözlü olması ilə daha da gücləndi. O, 3 avqust 1915-ci ildə həbs edildi və düşmən əsgərlərə sığınacaq verməkdə ittiham edildi. On həftə "Sen-Gilles" həbsxanasında saxlanıldı, sonuncu iki həftəni təkadamlıq kamerada keçirdi. O, Almaniya polisinə üç ifadə verdi və etiraf etdi ki, 60-a yaxın britaniyalı və 15 fransız əsgərin, eləcə də hərbi yaşda olan 100-ə yaxın fransız və belçikalı mülki şəxsin qaçırılmasında mühüm rol oynayıb. Hərbi məhkəmədə gənc belçikalı kişilərlə yanaşı, britaniyalı və fransız əsgərlərin Hollandiya sərhədini keçməsinə və nəticədə Britaniyaya daxil olmasına kömək etdiyi üçün mühakimə olundu. O, məhkəmədən bir gün əvvəl ifadəyə imza atarkən günahını etiraf edib. Kevel, qaçmağa kömək etdiyi əsgərlərin Britaniyaya sağ-salamat çatdıqda ona yazılı şəkildə təşəkkür etdiklərini bildirdi. Bu etiraf Kevelin əsgərlərə Hollandiya sərhədinə keçməsinə kömək etdiyini təsdiqlədi, lakin o, həm də onların Almaniya ilə müharibə aparan ölkəyə qaçmasına kömək etdiyini müəyyən etdi. Onun müttəhim yoldaşları arasında Şahzadə Recinaldın bacısı Kroya şahzadəsi Mari də var idi. Alman hərbi qanunlarına görə cəza ölüm idi… Birinci Cenevrə Konvensiyası adətən tibb işçilərinin müdafiəsinə zəmanət versə də, tibbi xidmətdən döyüş üçün pərdələndikdə bu qorunma itirilirdi. Bu hal Konvensiyanın o zaman qüvvədə olan variantı olan 1906-cı il variantının 7-ci maddəsində ifadə edilir və Almaniya hərbi qanunvericiliyinə uyğun olaraq təqib edilir.

Buna görə də Britaniya hökuməti ona kömək etmək üçün heç nə edə bilməzdi.

Brüsselin hərbi qubernatoru general fon Sauberzveyq "dövlətin maraqları naminə" Kevelə qarşı ölüm hökmünün tətbiqinin dərhal həyata keçirilməsini əmr etdi və yuxarı instansiyalarda əfv məsələsini nəzərdən keçirmək imkanını rədd etdi. Mühakimə edilən 27 müttəhimdən beşi ölümə məhkum edilmişdi. Kevel və Bak edam edilsə də, digər üç nəfərə möhlət verildi.

Bəzi araşdırmaçılar qeyd edir ki, Kevel casusluğa görə deyil, "müharibə xəyanəti"nə görə həbs edilib. Həbsdə olan zaman Kevel fransızca dindirilib, lakin onun məhkəməsi alman dilində protokollaşdırılıb. Protokol, təhrif edilmiş olsa da, o özünü müdafiə etmək üçün heç bir cəhd etməyib.

*Aytən Tahirova*
*polis kapitanı*

# Yeni kamera hazırlanıb

## Üztanıma sistemi kimi polisin də işinə yarayacaq

Çinli tədqiqatçılar 100 km məsafədən insan üzünü çəkə bilən kamera hazırladıqlarını açıqlayıb. "China Post"a verilən məlumata görə kamera Çin Elmlər Akademiyası tabeliyində olan Aeronavtika və Kosmik İnformasiya Tədqiqatı İnstitutu tərəfindən hazırlanıb. O 100 km məsafədən əşyaları millimetr səviyyəsində aydın görməyə imkan verir. Əşyalara olan məsafəni isə cəmi 15,6 millimetrlik xəta payıyla ölçür.

Bu isə indiyədək ənənəvi linza istifadə edən kamera və teleskoplardan 100 dəfə daha dəqiq görüntülənmə deməkdir.

*"Polis"*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik